# ŞAHMAT-D A M A



Şahmat və dama mücərrəd strategiya oyunudur və heç bir gizli məlumatı özündə əks etdirmir. Şahmat – idman, elm və incəsənətdir. İdman ona görədir ki, 2 nəfərin və yaxud komandaların mübarizəsidir. Elmdir, çünki oyun zamanı məntiq, riyaziyyat, psixologiya böyük rol oynayır. Lakin şahmat (dama) oyunundan, kombinasiyaların gözəlliyindən alınan zövqü isə onu incəsənətdən alınan zövq kimi dəyərləndirirlər.

Şahmat (dama) oyununun həqiqətən də uşaqlarda özünütənqid ruhunun formalaşmasına böyük təsir göstərməsi danılmaz faktdır. Oyunçu öz oyununa qarşı tamamilə obyektiv olmalıdır. “Rəqibim məndən yaxşımı oynayır?”, “Oyun sonum necədir?”. Oyununuza tənqidi yanaşmalısınız. Eyni ilə həyatda da insan öz davranışına münasibətdə obyektiv olmalı, hərəkətlərinə hər zaman tənqidi yanaşmalı, “Bu hərəkətim necə qarşılanar?”, “Qarşımdakı məndən daha düzgün addımlarmı atır?”, “Bu işin axırı necə bitəcək?” suallarını özünə verməklə daima doğru seçimlər etməyə səy göstərməlidir. Eynilə həyatda da insan məğlub olduğu və itirdiyi situasiyaları qiymətləndirməkdən qaçmamalı, əksinə həmin andakı davranışlarını daha diqqətli təhlil etməlidir ki, yol verdiyi xətaları anlasın və bir daha təkrarlamasın.

Deyilənlərdən o nəticəyə gəlmək olar ki, şahmat insanın bir sıra qabiliyyətlərinin inkişafına səbəb olur. Bu baxımdan deyirlər ki, şahmat qabiliyyəti fərdin bir və ya iki



qabiliyyətinin bir araya gəlməsi üzündən deyil, bir çox təbii bacarığının birlikdə istifadəsindən meydana çıxır. Şahmat insanın bütün qabiliyyətlərini inkişaf etdirir.

Bir illik şahmat tədrisi bir tələbənin öyrənmə qabiliyyətini, konsantrasiyasını, tətbiqetmə bacarığını, məntiq duyğusunu, intizamlı olmasını, hörmət hissini, davranışını və öz hərəkətlərinin məsuliyyətini dərketmə qabiliyyətini inkişaf etdirdiyini göstərir. Şahmatın insanda məsuliyyət hissini formalaşdırmasına toxunan şahmatçı Orrin Hudson isə bu barədə demişdir: *"Bu oyun sizə məsuliyyəti öyrədir. Əgər oyunda məğlub olsanız, özünüzü günahlandıra bilərsiniz. Həyatda da eynisi keçərlidir. Əgər qazanmaq istəyirsinizsə, məsuliyyət daşımağınız lazımdır".* Məsuliyyəti öyrədən şahmat (dama) təbii olaraq obyektiv olmağı və tənqidi təfəkkürü formalaşdırmış olur. Bu isə istər şahmat, istərsə də həyatda böyük önəm daşıyır. Şahmat oyununda bariz inkişafa nail olmaq obyektiv baxış, özünütənqid, zəiflikləri tapma və onları yoxetmə bacarığı tələb edir. Şahmat oyununun öyrətdikləri həyatın istənilən sahəsində hər kəs üçün çox faydalıdır.

Qeyd edək ki, ölkəmizdə də şahmatın tədrisi hər zaman ön plana çəkilmişdir. Hətta 2012-ci ildən başlayaraq ölkəmizdə pilot layihə kimi hər rayon və şəhərdən seçilmiş bir ümumtəhsil məktəbinin ikinci siniflərində "Şahmat" fənninin tədrisinə




başlanılmış, bir qədər sonra isə həmin layihənin əhatə dairəsi daha da genişləndirilmişdir.

Şahmat qaydaları şahmatın beynəlxalq idarəetmə orqanı olan FIDE (Fédération Internationale des Échecs) tərəfindən nəşr olunmuş məlumat kitabçasında yazılmışdır. Azərbaycan FİDE-nin üzvü olan 180-ə yaxın ölkə arasında şahmatın inkişaf etdirilməsi üzrə xüsusi Dövlət Proqramı qəbul etmiş yeganə dövlətdir. Azərbaycanda şahmatın böyük inkişaf yolu vardır.

## BÖLMƏNİN FƏALİYYƏTİ

"Təbib" idman klubunun şahmat bölməsində 2 qrup - hazırlıq və təkmilləşmə qrupları üzrə məşqlər aparılır. Tələbələrin şahmat idman növünə marağının artırılması istiqamətində müxtəlif şahmat yarışları təşkil edilir və beynəlxalq yarışlarda iştirak etmələri üçün mütamadi məşqlər keçirilir. Uzun illərdi Respublika spartakiada və universiada yarışlarında ATU-nun göstərdiyi nailiyyətləri qoruyub saxlamaq üçün qızlar və oğlanlardan ibarət yığma komandalar yaradılır və uğurlarımız hər il təkrarlanır. Bu müddət ərzində universitetimizin tələbələri arasında təsnifat turnirləri də təşkil olunur və davamlı olaraq gələcəkdə də keçirilməyi planlaşdırılır. 2022 və 2024-cü tədris ilində ATU-nun idman kompleksində ali təhsil müəssisələrinin tələbələri və müəllimləri arasında "Zəfər festivalı-1" və "Zəfər festivalı-2" adlı müxtəlif idman yarışları keçirilib. Bu yarışlarda ATU-nun şahmat üzrə yığma komandası bütün rəqiblərinə qalib gələrək I yerin sahibi olublar. Bölməmizdə ATU-nun müxtəlif fakültələrində təhsil alan şahmat üzrə idman ustalığına namizədlər və müxtəlif dərəcəli şahmatçılar məşğul olurlar.





## MƏŞQÇİ-MÜƏLLİM



**Bacarani-Qasımova Kübra Zəbulla qızı**
1974-cü il iyunun 3-də Bakıda ziyalı ailəsində anadan olub. 1991-1995-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda ali təhsil alıb. 1991-2009-cu illərdə Tofiq İsmayılov adına Uşaq-Gənclər yaradıcılıq sarayında şahmat üzrə məşqçi işləyib. 1998 - 2022-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasnda laborant, müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb. 2022-ci ildən ATU-nun "Təbib" idman klubunda (hazırda adı "Təbib" Tədris İdman Mərkəzi) şahmat üzrə məşqçi-müəllim işləyir. Müxtəlif beynəlxalq yarışların qalibi, şahmat üzrə FİDE ustası, Respublika dərəcəli hakimdir. Yetişdirdiyi tələbələrin göstərdikləri uğurları, respublika yığmasının üzvləri olduqlarını nəzərə alaraq Gənclər və İdman Nazirliyi tərəfindən 2015-ci ildə Azərbaycanın Əməkdar məşqçisi fəxri adına layiq görülüb. 1 dərslik, 2 metodik vəsait, 4 dərs proqramı, 5 tezis və 21 məqalə müəllifidir.